# Verilənlər Cədvəli

## Yeni 5 dollarlıq əskinaz: Təhlükəsizlik xüsusiyyətləri

ABŞ valyutasına bütün dünyada etibar edilir. Bu yüksək etibar, valyutanın düzgünlüyünü qorumaq və onun saxtalaşdırılmasının qarşısını almaq məqsədilə dizaynda edilən davamlı dəyişikliklərin və təkmilləşdirmələrin sayəsində qazanılıb.

ABŞ hökuməti valyutanı müasir dizayn və təhlükəsizlik cizgiləri ilə yeniləyərək saxtalaşdırmaya qarşı mübarizədə öndə durur. ABŞ valyutasının dizaynında ən son dəyişikliklər 2003-cü ildə yeni 20 dollarlıq əskinazın hazırlanması ilə başladı, daha sonra 2004- cü ildə 50 dollarlıq əskinaz və 2006-cı ildə 10 dollarlıq əskinaz buraxıldı. Yeni 5 dollarlıq əskinaz 2008-ci il 13 mart tarixində buraxılacaq, daha sonra yeni 100 dollarlıq əskinaz buraxılacaq.

### Təhlükəsizlik Xüsusiyyətləri

Yeni dizaynlı 5 dollarlıq əskinazlar daha etibarlı, daha zərif və daha təhlükəsizdirlər: ***daha etibarlıdırlar*** çünki onları yoxlamaq asandır; ***daha zərifdirlər***, çünki onları saxtalaşdırmaq daha çətindir; ***daha təhlükəsizdirlər***, ABŞ valyutasının toxunulmazlığını qorumaq üçün. Təhlükəsizlik cizgilərini saxta şəkildə düzəltmək saxta pul hazırlayanlar üçün çətin olduğundan onlar bu cizgiləri saxta pullarda tətbiq etməyə çalışmırlar, ümüd edirlər ki, nə pulu alanlar nə də camaat pulu yoxlamayacaq.

Yeni dizaynlı 5 dollarlıq əskinazda ən vacib təhlükəsizlik cizgilərindən ikisi var, bu cizgilər ilk olaraq 1990-cı illərdə tətbiq edilmişdir və onları yoxlamaq asandır.

***Su nişanları:*** Bu əskinazda iki su nişanı var. İri rəqəmlə yazılmış “5” su nişanı, köhnə dizaynlı beş dollarlıq əskinazda olan Prezident Linkolnun şəklini əvəz edən şəklin sağındakı boş yerdə yerləşir. İkinci su nişanı – üç kiçik “5”-dən ibarət sütun – yeni 5 dollarlıq əskinaz dizaynına əlavə edilib və şəklin solunda yerləşdirilib.

***Təhlükəsizlik sapı***: Əskinazı işığa tutun və şəklin sağ tərəfinə şağuli istiqamətdə həkk olunmuş təhlükəsizlik sapını və ya plastik zolağı axtarın. Əgər diqqətlə baxsanız əskinazın hər iki tərəfindən sap boyu “USA 5” sözünü görə bilərsiniz. Təhlükəsizlik sapı ultrabənövşəyi işığın altında mavi rəngə çalır.

### Dizayn xüsusiyyətləri

Yeni əskinazlar köhnələr ilə eyni ölçüdədir və onlar ilə eyni, ancaq daha keyfiyyətli şəkillər və tarixi təsvirlərdən istifadə edir. Hər şeydən əvvəl dünya Amerikanlılar üçün səciyyəvi olan yeni pulu tanımağa davam edəcək. Dizayndakı dəyişikliklər yalnız bu pulların saxtalaşdırılmasının çətinləşdirilməsi məqsədi ilə əlavə edilmiş mürrəkkəblikdən ibarət deyil, həm də ictimaiyyətin, xüsusilə görməsi zəif olanların pulları yaxşı ayırd edə bilməsi üçün əlavə edilmış digər xüsusiyyətlərdən ibarətdir. 5 dollarlıq əskinazın arxa hissəsinin aşağı sağ küncündə iri, bənövşəyi rəngdə “5” rəqəmi əks olunub. Bu görməsi zəif olanların pulun denominasiyasını asan seçmələrinə kömək edir.

# Verilənlər Cədvəli

***Rəng:*** Saxta pul hazırlayanlar tərəfindən rəngin dublikatını çıxarmaq mümkün olduğundan, bu əlamət kağız pulun həqiqiliyinin yoxlanması üçün istifadə olunmamalıdır. Bununla belə əskinazın dizaynına rəng əlavə etmək onun dizaynını daha da mürəkkəbləşdirir. Yeni dizaynlı əskinazda ən çox gözə çarpan yenilik əskinazın mərkəzinə açıq bənövşəyi rəngin əlavə edilməsidir, bu rəng kənarlara doğru boz rəngə çalır. Əskinazın üz tərəfində şəklin solunda və arxa tərəfində Linkolnun Heykəl vinyetkasının sağ tərəfində kiçik sarı “05” lər çap olunub.

***Azadlıq simvolları:*** Yeni dizaynlı 5 dollarlıq əskinazın fonuna Prezident Linkolnun şəklinin sağ tərəfinə bənövşəyi rənglə Amerikanın yeni azadlıq simvolu – qartal və qalxan əks etdirən ABŞ-ın böyük dövlət möhürü əlavə olunub. Bönövşəyi ulduzlardan ibarət qövs şəkli və Böyük dövlət möhürünü əhatə edir. Hər bir denominasiya üçün azadlıq simvolları fərqlənir.

***Şəkil və Vinyetka:*** Əskinazın üz tərəfində Prezident Linkolnun şəklinin və arxa tərəfdə Linkolnun Heykəl vinyetkasının ətrafındakı oval kənarlar götürülüb. Şəkil yuxarı qaldırılıb və çiyinləri genişləndirilib. Buludlu səmanın fonunda Linkolnun Heykəlini əhatə edən naxışlar vinyetkaya əlavə edilib.

**Digər əlamətlər**

***Mikrotipiya:*** Mikrotipiya edilmiş sözlər çox kiçik olduğundan onların surətlərini çıxarmaq çətindir. Yeni dizaynlı 5 dollarlıq əskinazın ön tərəfində üç yerdə mikrotipiya əks olunub: “FIVE DOLLARS” sözləri əskinazın sol və sağ kənarlarında təkrarlanır; “E PLURIBUS UNUM” sözləri Böyük Dövlət Möhürünün içində qalxanın yuxarı hissəsində görünür; “USA” sözü qalxanın sütünları arasında təkrarlanır. Əskinazın arxa tərəfində “USA FIVE” sözləri iri bənövşəyi və asan ayırd edilən “5”-in bir kənarı boyu yazılır.

***Asan ayırd edilən Cizgi:*** İri asan ayırd edilən “5” rəqəmi əskinazın arxa tərəfində aşağı sağ küncdə yerləşir, yeni dizaynda bu rəqəm böyüdülüb və yüksək kontraslı bənövşəyi rəngdə çap edilib. Bu da görməsi zəif olanların denominasiyanı asan ayırd etmələrinə kömək edir.

***Federal Ehtiyat Göstəriciləri:*** Şəklin sol tərəfindəki universal möhür bütöv Federal Ehtiyat Sistemini ifadə edir. Seriya nömrəsinin aşağısında sol tərəfdəki hərf və rəqəm əskinazı buraxan Federal Ehtiyat Bankını ifadə edir.

***Seriya nömrələri***: On bir rəqəm və hərfin unikal birləşməsi əskinazın ön tərəfində iki yerdə qeyd olunub. Yeni dizaynlı 5 dollarlıq əskinazda soldakı seriya nömrəsi bir az sağa gətirilib.

**Rahat Keçirmə**

Dövlət təhsil və məlumatlılıq proqramının məqsədi yeni dizaynlı 5 dollarlıq əskinazların ABŞ-a və bütün dünyaya rahat təqdim edilməsinə nail olmaqdır. ABŞ hökuməti yeni dizaynlı əskinazların rahat keçirilməsinə nail olmaq üçün biznes icması, milli təşkilatlar və xarici mərkəzi banklarla sıx əməkdaşlıq edir.





# Verilənlər Cədvəli

Dünyada ABŞ valyutası digər valyutalardan daha çox dövriyyədədir. Daha dəqiq desək, bütün dünyada 770 milyarddan çox dollar tədavüldədir. ABŞ valyutasının dünyada yayılmış geniş həcmi ilə dövlət təhsil və məlumatlılıq proqramı köhnə dizaynlı əskinazları necə təqdim etmənin vacibliyini sübut etmişdir. Səhmdarları və ictimaiyyəti yeni dizayndakı dəyişikliklərlə tanış etmək və valyutanı tanımaq üçün təhlükəsizlik cizgiləri haqqında məlumat vermək üçün yeni dizaynlı 5 dollarlıq əskinaz üzrə də eyni səylər göstərilməyə davam edir.

***Köhnə dizaynlı 5 dollarlıq əskinazdan istifadə*:** Köhnə dizaynlı 5 dollarlıq əskinazları yeniləri ilə əvəzləməyə ehtiyac yoxdur. Köhnə əskinazlar da istifadədədirlər. Əslində 1861-ci ildən bəri buraxılan hər bir ABŞ əskinazı hələ də tam qüvvəsi ilə istifadədədir və etibarlı valyuta olmağa davam edir. Əlavə olaraq qeyd edək ki, ABŞ heç vaxt öz valyutasını devalvasiya etmədiyindən və gələcəkdə də etməyəcəyindən hər hansı ABŞ əskinazlarının qiymətdən düşməsi baş verməyəcək.